European Union

HÜQUQ VƏ İNKİŞAF
İCTİMAİ BİRLİYİ

# SOSİAL HÜQUQLARIN HÜQUQİ MÜDAFİƏSİ



European Union

HÜQUQ VƏ İNKİŞAF
İCTİMAİ BİRLİYİ

# SOSİAL HÜQUQLARIN
# HÜQUQİ MÜDAFİƏSİ

*Kitabça Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və BMT İnkişaf Proqramı tərəfindən icra olunan "Həssas əhali qruplarının sosial-iqtisadi hüquqlarının təmin olunmasında vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi" layihəsi çərçivəsində həyata keçirilən "Azərbaycanda sosial hüquqlar və onun müdafiəsinin təkmilləşdirilməsi" layihəsi üzrə çap olunub.*

© "GGP Consult" Məhdud Məsuliyyətli Cəmiyyəti

B a k ı -2017

**M Ü N D Ə R İ C A T**

**Giriş**..........................................................................................................3

**I. SOSİAL HÜQUQLARIN İNZİBATİ QAYDADA MÜDAFİƏSİ**........... 5

**II. SOSİAL HÜQUQLARIN MƏHKƏMƏ MÜDAFİƏSİ**............................... 9

**III. SOSİAL HÜQUQLARIN AZƏRBAYCAN RESPUBLİKASI İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ (OMBUDSMAN) TƏRƏFİNDƏN MÜDAFİƏSİ**........................................................................ 18

**IV. ƏRİZƏ VƏ ŞİKAYƏTLƏRİN FORMALARI VƏ NÜMUNƏLƏRİ**........................................................................................ 21

## *Giriş*

*Sosial hüquqlar insanın ləyaqətli həyat şəraiti, sosial müdafiəsi ilə bağlı hüquqi təminatlardır və qanunla qorunur.*

*Konstitusiyanın 60-cı maddəsi sosial hüquqlar da daxil olmaqla hüquq və azadlıqların müdafiəsinin iki formasını –* ***inzibati qaydada*** *və* ***məhkəmə*** *müdafiəsini nəzərdə tutur.*

*Burada göstərilir ki, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər.*

*Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər.*

*Konstitusiyanın 61-ci maddəsi hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnu nəzərdə tutur və burada deyilir ki, qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.*

*"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6-cı maddəsində göstərilir ki, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağılabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.*

*Sosial hüquqların inzibati qaydada müdafiəsi "İnzibati icraat haqqında" qanunla müəyyən edililmiş qaydada həyata keçirilir. Bu qaydaya görə inzibati orqanın və onun vəzifəli şəxsinin hüququ pozan hərəkətindən (hərəkətsizliyindən) və aktından həmin orqanın tabe olduğu yuxarı inzibati orqana şikayət vermək yolu ilə həyata keçirilir.*

*Bununla belə, hüququ pozulan şəxs yuxarı inzibati orqana şikayət verməklə yanaşı inzibati məhkəməyə də müraciət edə bilər.*

*Sosial hüquqların məhkəmə müdafiəs inzibati məhkəmələr ümumi yurisdiksiyalı məhkəmələr tərəfindən həyata keçirilir.*

*Sosial hüquqlar dövlət orqanları tərəfindən pozulduqda və onun bərpası yerli məhkəmələr tərəfindən mümkün olmadıqda, Avropa Məhkəməsinə fərdi şikayətlər verilə bilər.*

*"Sosial hüquqların hüquqi müdafiəsi" adlı bu kitabçada bütün bunlar nəzərə alınaraq sosial hüquqların həyata keçirilməsi, bu hüquqların inzibati qaydada və məhkəmə müdafiəsi ilə bağlı qaydalar izah edilib. Burada həmçinin, dövlət qurumlarına və məhkəmələrə müraciətlərin formaları və nümunələri verilib.*

*Hesab edirik ki, hüquqi maarifçilik xarakterli bu Kitabça vətəndaşlara öz hüquqlarının həyata keçirilməsində və pozulmuş hüquqlarının müdafiəsində dəyərli vəsait olacaq.*

# I. SOSİAL HÜQUQLARIN İNZİBATİ QAYDADA MÜDAFİƏSİ

Sosial hüquqları pozulan şəxslər onun inzibati qaydada bərpası və müdafiəsi hüququna malikdirlər. Konstitusiyanın 60-cı maddəsi ilə digər hüquqlar kimi sosial hüquqların da məhkəmə müdafiəsi ilə yanaşı inzibati qaydada müdafiəsinə təminat verilir.

Sosial hüquqların inzibati qaydada müdafiəsi əsasən, Konstitusiya, "İnzibati icraat haqqında" qanun və digər müvafiq normativ hüquqi aktlarla tənzimlənir.

"İnzibati icraat haqqında" qanunda deyilir ki, maraqlı şəxslər hüquqlarını və ya qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə inzibati aktdan və ya inzibati aktın qəbul edilməsindən imtinadan, habelə inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən şikayət vermək hüququna malikdirlər.[1]

"İnzibati icraat haqqında" qanunun 2.0.1. maddəsinə görə **inzibati orqan müvafiq icra hakimiyyəti orqanları, onların yerli (struktur) və digər qurumları, bələdiyyələr, habelə qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş fiziki və ya hüquqi şəxsdir.**

Həmin Qanunun 2.0.2. maddəsinə görə isə, **inzibati akt - inzibati orqan tərəfindən ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədilə qəbul edilmiş və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaradan qərar, sərəncam və ya digər növ hakimiyyət tədbiridir.** Sosial hüquqların inzibati qaydada müdafiəsi üzrə şikaəylərin verilməsi "İnzibati icraat haqqında" qanunun VII fəsli (71 – 80-ci maddələr) ilə tənzimlənir.

**İnzibati orqanın və onun vəzifəli şəxsinin hüququ pozan hərəkətindən (hərəkətsizliyindən) və aktından həmin orqanın**

1 "İnzibati icraat haqqında" qanunun 71.1. və 71.2.-ci maddələri

**tabe olduğu yuxarı inzibati orqana şikayət vermək yolu ilə həyata keçirilir.**

**İnzibati orqanın və onun vəzifəli şəxsinin hüququ pozan hərəkətindən (hərəkətsizliyindən) eyni vaxtda həm inzibati, həm də məhkəmə qaydasında şikayət (inzibati iddia) verildiyi hallarda, şikayətə məhkəmə qaydasında baxılır və şikayət instansiyasında həmin şikayət üzrə başlanılmış icraata xitam verilir.**[2]

Şikayət **inzibati aktın qüvvəyə mindiyi gündən 30 gün müddətində birbaşa və ya inzibati aktı qəbul etmiş inzibati orqan vasitəsilə şikayət instansiyasına *(orqanın tabe olduğu yuxarı inzibati orqana)* təqdim edilir.** İnzibati orqan **3 gün müddətində** həmin şikayəti şikayət instansiyasına göndərməyə borcludur.

İnzibati aktda ona qarşı mümkün hüquqi müdafiə vasitələri, bu hüquqi müdafiə vasitələrindən istifadə (şikayət vermə) qaydası və müddəti nəzərdə tutulmadıqda və ya inzibati akt onun ünvanlanmadığı digər maraqlı şəxslərin qanuni maraqlarına (ilk dəfə) toxunduqda, həmin inzibati aktdan onun qüvvəyə mindiyi gündən 6 ay müddətində şikayət verilə bilər.

İnzibati aktdan şikayət verilməsi ilə bağlı müddət üzrlü səbəbdən buraxıldıqda, maraqlı şəxsin ərizəsinə əsasən şikayət instansiyası tərəfindən həmin müddət bərpa edilir.

İnzibati şikayət yazılı formada tərtib edilməli və şikayətdə aşağıdakı məlumatlar göstərilməlidir:

- *şikayətin verildiyi inzibati orqanın adı və ünvanı;*
- *şikayəti verən şəxsin soyadı, adı, atasının adı, yaşayış yeri və ya olduğu yer (hüquqi şəxsin adı və hüquqi ünvanı), inzibati icraatda prosessual vəziyyəti;*

2 "İnzibati icraat haqqında" qanunn 72.2.-ci maddəsi

- *barəsində şikayət verilən inzibati akt və ya hərəkət (hərəkətsizlik)[3];*
- *şikayəti verən şəxsin tələbi və tələbin əsasları;*
- *şikayətin tərtib edildiyi tarix;*
- *şikayəti verən şəxsin imzası.*

İnzibati şikayət yuxarıda nəzərdə tutulmuş formal tələblərə cavab vermədikdə, inzibati orqan şikayətin həmin tələblərə uyğun olaraq düzəldilməsi üçün qısa müddət təyin edir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini şikayətçiyə izah edir.

İnzibati orqan şikayətdə buraxılmış səhvlərin aşkar edilməsində və onların aradan qaldırılmasında şikayətçiyə yardım etməyə, inzibati icraatda iştirak edən şəxsin malik olduğu hüquq və vəzifələri ona izah etməyə borcludur.[4]

Şikayət instansiyası aşağıdakı hallarda inzibati şikayəti baxılmamış saxlayır:

- *şikayətin tərtib olunması üçün nəzərdə tutulmuş tələblərə əməl olunmadıqda;*
- *şikayətin predmeti üzrə digər səlahiyyətli inzibati orqanın və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;*
- *inzibati şikayətin verilməsi üçün qanunla müəyyən olunmuş müddət buraxıldıqda və buraxılmış müddət bərpa edilmədikdə;*
- *şikayət maraqlı şəxsin və ya onun nümayəndəsinin ərizəsinə əsasən geri götürüldükdə.*

3 Qanunsuz hərəkət, şəxsin və ya orqanın qanunun yol vermədiyi hərəkəti etməsidir. Qanunsuz hərəkətsizlik, şəxsin və ya orqanın qanunla etməli olduğu hərəkəti etməməsidir

4 "İnzibati icraat haqqında" qanunun 23.1.-ci maddəsi

Şikayətçi nəzərdə tutulmuş əsasları aradan qaldırdıqdan sonra ümumi qaydada yenidən inzibati şikayət verə bilər.

İnzibati şikayət onunla bağlı qərar qəbul edilənədək şikayətçi tərəfindən geri götürülə bilər.

Qanunda başqa müddət nəzərdə tutulmamışdırsa, **şikayət instansiyası daxil olduğu gündən 1 ay müddətində inzibati şikayətə baxmağa və mahiyyəti üzrə qərar qəbul etməyə borcludur.**

Şikayət inzibati aktı qəbul etmiş inzibati orqana təqdim olunduqda, həmin orqan şikayəti və icraatla bağlı materialları şikayət instansiyasına göndərməyə borcludur. Şikayət maraqlı şəxs tərəfindən birbaşa şikayət instansiyasına təqdim olunduqda, həmin orqan şikayət olunan inzibati aktı qəbul etmiş inzibati orqandan icraatla bağlı materialları tələb edə bilər.

Şikayət üzrə icraat zamanı şikayət instansiyası tərəfindən işə mahiyyəti üzrə və tam həcmdə baxılır, şikayət olunan aktın qanunauyğunluğu və məqsədəuyğunluğu araşdırılır.

Şikayət instansiyasının şikayət üzrə qərarı həm işdə olan, həm də əlavə təqdim olunmuş sübutlara əsaslanmalıdır.

Şikayət instansiyası şikayətə baxılmasını heç bir halda şikayət olunan inzibati aktı qəbul etmiş inzibati orqana və ya onun vəzifəli şəxslərinə həvalə edə bilməz.

İnzibati şikayətə baxdıqdan sonra şikayət instansiyası:

- *inzibati aktı dəyişdirmədən, inzibati şikayəti isə təmin etmədən saxlayır və ya;*
- *inzibati aktı tamamilə və ya qismən ləğv edir və işdə olan və ya əlavə təqdim olunmuş sübutlar əsasında yeni inzibati akt qəbul edir və ya;*
- *inzibati aktı dəyişdirir;*

İnzibati şikayət  inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən verilibsə, həmin şikayət üzrə aparılmış araşdırmanın nəticəsinə dair qərar qəbul edir.

Şikayət instansiyası tərəfindən inzibati şikayət üzrə qəbul edilmiş qərar inzibati akt sayılır və inzibati aktlara dair "İnzibati icraat haqqında" qanunla müəyyən edilmiş tələblərə uyğun olmalıdır.

Şikayət instansiyası tərəfindən nəzərdə tutulmuş müddət ərzində qərar qəbul edilmədikdə və ya şikayət instansiyası tərəfindən qəbul edilmiş qərarla razılaşmadıqda, şikayətçi məhkəməyə şikayət verə bilər.

■

## II. SOSİAL HÜQUQLARIN MƏHKƏMƏ MÜDAFİƏSİ[5]

Sosial hüquqlar müvafiq icra hakimiyyəti orqanları, onların yerli (struktur) və digər qurumları, bələdiyyələr, habelə qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş  fiziki və ya hüquqi şəxsin hüququ pozan hərəkəti (hərəkətsizliyi) və aktı nəticəsində pozulduqda, bu hüquqların məhkəmə müdafiəsi **inzibati məhkəmələr** tərəfindən həyata keçirilir.

Sosial hüquqlar digər hüquqi və fiziki şəxslərin hüququ pozan hərəkəti (hərəkətsizliyi) və aktı nəticəsində pozulduqda isə, onların müdafiəsi **ümumi yurisdiksiyalı məhkəmər** (rayon, şəhər məhkəmələri, apellyasiya və kassasiya məhkəmələrinin mülki kollegiyaları) tərəfindən həyata keçirilir.

İnzibati məhkəmə icraatında aşağıdakı iddialara baxılır:

1. **Şəxsin hüquq və vəzifələri ilə bağlı inzibati orqan tərəfindən qəbul edilmiş inzibati aktın mübahisələndirilməsinə (ləğv**

[5] Ərizəçilərin adından məhkəmədə nümayəndə kimi yalnız yaxın qohumları çıxış edə bilərlər. Digər hallarda Ərizəçiləri məhkəmədə  yalnız vəkillə təmsil edə bilərlər.

**olunmasına və ya dəyişdirilməsinə) dair iddialara (mübahisələndirmə haqqında iddia);** Yəni iddiaçı inzibati orqan tərəfindən artıq qəbul olunmuş və onun üçün hüquqi nəticələr yaradan inzibati aktın ləğv edilməsi və ya dəyişdirlməsini, icraya yönəldilmiş məhkəmədən tələb edə bilər. Məsələn, yerli icra hakimiyyəti orqanı tərəfindən vətəndaşın yaşadığı evin qanunsuz hesab edilməsi və sökülməsi barədə qərar qəbul olunduqda vətəndaş həmin qərarı qanunsuz hesab edə və bu qərarın ləğv olunması üçün məhkəməyə müraciət edə bilər. Bu inzibati aktlar mübahisələndirmə haqqında iddianın predmeti ola bilər:

*a) barəsində məhkəməyə şikayət verilməmiş inzibati akt;*

*b) barəsində şikayət verildiyi hallarda, şikayət instansiyasının qərarı ilə dəyişdirilmiş inzibati akt(şikayət instansiyası tərəfindən qərar qəbul edildikdən sonrakı formada ilkin inzibati akt);*

*c) şikayət instansiyası tərəfindən şikayətə baxma qaydasında qəbul edilmiş və ilk dəfə olaraq üçüncü şəxs üçün öhdəlik yaradan qərar (inzibati akt).*

2. **İnzibati orqanın üzərinə inzibati aktın qəbul edilməsi ilə bağlı müvafiq öhdəliyin qoyulmasına dair iddialara və ya inzibati orqanın hərəkətsizliyindən müdafiəyə dair iddialara (məcburetmə haqqında iddia);** Məcburetmə haqqında iddia vasitəsi ilə iddiaçı onun arzuladığı inzibati aktı qəbul etmək vəzifəsini cavabdehin üzərinə qoymağı məhkəmədən tələb edə bilər. Bu qayda həm iddiaçının arzuladığı inzibati aktın qəbulundan cavabdeh tərəfindən imtina edildiyi hallara, həm də cavabdehin hərəkətsizliyi səbəbindən (hərəkətsizliyə qarşı iddia) inzibati aktın qəbul edilmədiyi hallara şamil olunur. Məsələn, bələdiyyə qanunla pulsuz torpaq sahəsi verilməsi nəzərdə tutulan şəxsə torpaq sahəsinin verilməsindən imtina edə bilər. Bu halda vətəndaş torpaq sahəsinin ona verilməsi barədə inzibati aktın qəbul olunması barədə məhkəməyə müraciət edə bilər.

3. **İnzibati orqan tərəfindən inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan müəyyən hərəkətlərin edilməsinə dair iddialara (öhdəliyin icrası haqqında iddia);** Öhdəliyin icrası haqqında iddia vasitəsi ilə iddiaçı cavabdehdən inzibati aktın qəbul edilməsi ilə bağlı olmayan (inzibati aktın qəbul edilməsinə yönəlməyən) müəyyən hərəkətlərin edilməsini tələb edə bilər. Öhdəliyin icrası haqqında iddia vasitəsi ilə həmçinin inzibati orqanlar tərəfindən ümumi hüquqi öhdəliklərin pozulması n əticəsində vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi də tələb edilə bilər.

4. **İnzibati orqanın inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan və bilavasitə şəxsin hüquq və azadlıqlarını pozan qanunsuz müdaxiləsindən müdafiəyə dair iddialara (müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia);** Müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia vasitəsi ilə iddiaçı cavabdehdən inzibati akt sayılmayan əlverişsiz hərəkətlərin edilməməsini və ya dayandırılmasını tələb edə bilər. Qəbul edilməsi gözlənilən inzibati akta qarşı qabaqlayıcı (preventiv) iddianın qaldırılmasına yalnız obyektiv səbəblərdən irəli gələn müstəsna hallarda (şəxsin hüquqlarına və qanunla qorunan maraqlarına müdaxilənin qarşısını almağın xüsusilə zəruri olduğu hallarda) yol verilir. Məsələn, şəhərin yeni Baş Planına görə istirahət parkı salınması nəzərdə tutulan ərazinin bir hissəsində ticarət obyekti yerləşir. İstirahət Parkının salınması ilə bağlı həmin ticarət obyektinin sökülməsinə dair müvafiq sərəncam veriləcəyi realdır. Bu halda mülkiyyət hüquqlarına zərər dəyəcək sahibkar şəhər rəhbərliyinin üzərinə belə bir inzibati aktın qəbul edilməməsinə dair vəzifə qoyulmasına dair məhkəmədə iddia qaldırır.

5. **İnzibati hüquq münasibətinin mövcud olmasına və ya olmamasına, habelə inzibati aktın etibarsız sayılmasına dair iddialara (müəyyən etmə və ya tanınma haqqında iddia);** Müəyyən etmə və ya tanınma haqqında iddia vasitəsi ilə iddiaçı hər

hansı hüquq münasibətinin mövcud olması v ə ya olmamasının, yaxud inzibati aktın etibarsızlığının tanınmasını məhkəmədən tələb edə bilər. Müəyyən etmə v ə ya tanınma haqqında iddia vasitəsi ilə iddiaçı artıq icra olunmuş inzibati aktın qanunsuz sayılmasını m əhkəmədən tələb edə bilər. Müəyyən etmə v ə ya tanınma haqqında iddia iddiaçının həmin münasibətlərin qısa müddətdə müəyyən edilməsində kifayət qədər maraqlı olduğu hallarda qaldırıla bilər. Hüquq münasibətlərinin müəyyən edilməsində iddiaçının marağı hüquqi, iqtisadi və ya ideya xarakterli ola bilər.

Hazırda fəaliyyət göstərən inzibati-iqtisadi məhkəmələrin yurisdiksiyasına aid olan ərazi vahidləri aşağıdakı kimidir:

**Naxçıvan Muxtar Respublikası İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:** Naxçıvan şəhəri, Babək rayonu, Culfa rayonu, Kəngərli rayonu, Ordubad rayonu, Sədərək rayon, Şahbuz rayonu, Şərur rayonu.

**1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:.** Binəqədi rayonu. Qaradağ rayonu, Nəsimi rayonu, Səbail rayonu, Yasamal rayonu.

**2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:** Xətai rayonu, Xəzər rayonu, Nərimanov rayonu, Nizami rayonu, Sabunçu rayonu, Suraxanı rayonu.

**Gəncə İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:** Gəncə şəhəri, Ağdam rayonu, Ağstafa rayonu, Bərdə rayonu, Daşkəsən rayonu, Gədəbəy rayonu, Goranboy rayonu, Göygöl rayonu, Xankəndi şəhəri, Xocalı rayonu, Kəlbəcər rayonu, Qazax rayonu, Naftalan şəhəri, Samux rayonu, Şəmkir rayonu, Tərtər rayonu, Tovuz rayonu.

**Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:** Sumqayıt şəhəri, Abşeron rayonu, Xaçmaz rayonu, Xızı rayonu, Qobustan rayonu, Quba rayonu, Qubadlı rayonu, Qusar rayonu, Siyəzən rayonu, Şabran rayonu, Şamaxı rayonu, Şuşa rayonu, Zəngilan rayonu.

**Şirvan İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:** Ağcabədi rayonu, Ağsu rayonu, Astara rayonu, Beyləqan rayonu, Biləsuvar rayonu; Cəbrayıl rayonu, Cəlilabad rayonu. Füzuli rayonu, Hacıqabul rayonu, Xocavənd rayonu, İmişli rayonu, Kürdəmir rayonu, Laçın rayonu, Lerik rayonu, Lənkəran rayonu, Masallı rayonu, Neftçala rayonu, Saatlı rayonu, Sabirabad rayonu, Salyan rayonu, Şirvan şəhəri, Ucar rayonu, Yardımlı rayonu, Zərdab rayonu.

**Şəki İnzibati-İqtisadi Məhkəməsinin yurisdiksiyasına aid olan ərazi vahidləri:** Şəki rayonu, Ağdaş rayonu, Balakən rayonu, Göyçay rayonu, İsmayıllı rayonu, Qax rayonu, Qəbələ rayonu, Mingəçevir şəhəri, Oğuz rayonu, Yevlax rayonu, Zaqatala rayonu

**İnzibati məhkəmə icraatı üzrə iddia ərizəsi müvafiq məhkəməyə yazılı şəkildə aşağıdakı müddətlərdə verilə bilər:**

- *mübahisələndirmə haqqında iddia inzibati aktın təqdim (elan) olunduğu vaxtdan, şikayət instansiyasına şikayət verildiyi hallarda isə şikayətə dair qəbul olunan inzibati aktın təqdim olunduğu vaxtdan 30 gün müddətində qaldırıla bilər.*
- *məcburetmə haqqında iddia tələb olunan inzibati aktın qəbul edilməsindən imtina barədə iddiaçıya müvafiq inzibati aktın təqdim edildiyi və ya bu barədə yazılı məlumatın verildiyi vaxtdan 30 gün müddətində qaldırıla bilər.*

Qeyd edək ki, qanunvericilikdə məhkəməyə müraciət üzrə buraxılmış müddətin bərpa edilməsi imkanı da nəzərdə tutmuşdur. Belə ki, əgər müddət üzürlü səbəbdən buraxılmışdırsa, bu halda iddia ərizəsinin, apellyasiya, kassasiya və əlavə kassasiya şikayətinin verildiyi məhkəməyə eyni zamanda müddətin bərpası ilə bağlı ərizə də təqdim edilməlidir. Məhkəmə müddətin buraxılmasını üzürlü hesab etdikdə, müddəti bərpa edə və müraciəti qəbul edə bilər.

**İddia ərizəsində aşağıdakılar göstərilməlidir:**

- *ərizənin verildiyi məhkəmənin adı;*

- *iddiaçı v ə cavabdeh fiziki şəxslərin soyadları, adları, atalarının adları, yaşayış yerləri, inzibati orqanların (hüquqi şəxslərin) adı və hüquqi ünvanları;*
- *iddiaçının (ərizəçinin) tələbi. Bunlar hər bir iddia ərizəsində göstərilməli olan məlumatlardır.*
- *əgər iddiaçı məhkəmə prosesinin tezləşdirilməsini istəyirsə, iddia ərizəsində həmçinin aşağıdakıları da göstərə bilər (genişləndirilmiş ərizə forması):*
- *iddiaçının öz tələbini əsaslandırdığı faktlar və digər sübutetmə vasitələri;*
- *iddiaçının arzuladığı inzibati aktın qəbul edilməsinin zəruriliyini göstərən hallar və iddiaçının istəyinə uyğun olaraq, həmin inzibati aktın layihəsi;*
- *mübahisənin düzgün həll edilməsi üçün zəruri olan digər məlumatlar və iddiaçının vəsatətləri;*
- *əsli və ya surəti iddia ərizəsinə qoşulmaqla, mübahisələndirilən inzibati akt və şikayət instansiyasına şikayət verildiyi hallarda şikayət instansiyasının qərarı;*
- *ərizəyə əlavə olunmuş sənədlərin siyahısı.*

*Proses iştirakçılarının sayına görə iddia ərizəsinin və digər sənədlərin surətləri iddia ərizəsinə əlavə olunmalıdır.*

İddia ərizəsi məhkəməyə daxil olduğu gün məhkəmənin dəftərxanasında qeydiyyata alınmalı və ərizəyə qeydiyyat tarixi göstərilməklə ştamp vurulmalıdır. İddia ərizəsi məhkəməyə daxil olduğu gündən icraata qəbul edilmiş sayılır. Ərizə məhkəmə tərəfindən **ağılabatan müddətdə** baxılmalı və həmin işin həllinə dair qətnamə və ya qərardad çıxarılmalıdır.

Ərizəçi birinci instansiya məhkəməsinin qərarı ilə razılaşmadıqda, həmin qərardan apellyasiya şikayəti verə bilər. Apellyasiya şikayəti apellyasiya məhkəmələrinin inzibati-iqtisadi kollegiyalarına verilir.

Hazırda apellyasiya instansiyası məhkəmələri kimi **Bakı Apellyasiya Məhkəməsi, Gəncə Apellyasiya Məhkəməsi, Sumqayıt Apellyasiya Məhkəməsi, Şirvan Apellyasiya Məhkəməsi və Şəki Apellyasiya Məhkəməsi fəaliyyət göstərir.** Apellyasiya şikayəti məhkəmə qərarı rəsmi qaydada verildiyi gündən **30 gün** müddətindəverilə bilər.

**Apellyasiya şikayətində aşağıdakılar əks olunmalıdır:**

- *şikayətin verildiyi məhkəmənin adı və ünvanı;*
- *şikayəti verən şəxsin soyadı, adı, atasının adı, iş yeri, yaşayış yeri, yaxud olduğu yer və işdə prosessual vəziyyəti;*
- *barəsində şikayət verilən qətnamə, onun qəbul edilmə tarixi, nəticə hissəsi, qətnaməni qəbuledən məhkəmənin adı;*
- *şikayəti verən şəxsin tələbi və işin materiallarına istinad etməklə ərizəçinin qətnaməni düzgün hesab etmədiyi əsaslar;*
- *şikayətə əlavə edilən sənədlərin siyahısı.*

Apellyasiya şikayəti, şikayəti vermiş şəxs, onun və ya qanuni nümayəndəsi tərəfindən imzalanmalıdır.

Apellyasiya şikayəti ona əlavə edilmiş sənədlərlə birgə işə baxmış birinci instansiya məhkəməsi vasitəsi ilə verilir. Apellyasiya şikayəti və ona əlavə olunan yazılı sənədlər işdə iştirak edən şəxslərin sayına uyğun sayda təqdim edilir.

**Ərizəçi apellyasiya instansiyası məhkəməsinin qərarı ilə razılaşmadıqda Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasına kassasiya şikayəti verə bilər.**

Kassasiya şikayəti məhkəmə qərarının rəsmi qaydada tam formada təqdim olunduğu gündən **1 ay**, məhkəmə qərardadının təqdim olunduğu gündən **10 gün** müddətində müvafiq apellyasiya instansiyası məhkəməsi vasitəsi ilə verilir.

Şikayətdə mübahisə edilən məhkəmə qərarı v ə ya qərardadı barədə məlumatlar göstərilməli və şikayət əsaslandırılmalıdır. Şikayətin

əsaslandırma hissəsində şikayəti verən şəxsin tələbi göstərilməlidir.

**Yuxarıda qeyd edilidyi kimi, əmək hüquqlarının pozulması, işdə bədbəxt hadisə nəticəsində sağlamlığa vurulan zərər, təhsil hüquqları, ailə hüquqları, mənzil hüquqları və s. kimi sosial hüquqların hüquqi müdafiəsi rayon, şəhər məhkəmələri, apellyasiya və kassasiya məhkəmələrinin mülki kollegiyaları tərəfindən həyata keçirilir .**

**Sosial hüquqların mülki məhkəmə icraatı qaydasında hüquqların müdafiəsi** üzrə məhkəməyə müraciət də inzibati məhkəmə icraatı kimi yazılı iddia ərizəsi formasında verilir.

**İddia ərizəsində aşağıdakı məlumatlar göstərilməlidir:**

- *ərizənin verildiyi məhkəmənin adı;*
- *işdə iştirak edən şəxslərin adları, onların poçt ünvanları;*
- *iddiaçının və ya ərizəçinin tələbi, onların öztələblərini əsaslandırdıqları hallar, iddia bir neçə cavabdehə verildikdə isəonların hər birinə qarşı yönələn tələb;*
- *müqavilə ilə və ya həmin kateqoriya işlər üçün qanunla bu nəzərdə tutulmuşsa, cavabdehlə mübahisənin məhkəməyəqədər qaydada nizamasalınmasına riayət edilməsinə dair məlumat;*
- *ərizəyə əlavə edilən sənədlərin siyahısı.*

**İddia ərizəsinə aşağıdakı sənədlər əlavə edilir:**

- *cavabdehlərin və üçüncü şəxslərin sayına görə iddia ərizəsinin surətləri;*
- *dövlət rüsumunun ödənilməsi haqqında sənəd;*
- *əgər qanuni nümayəndə varsa, qanuni nümayəndənin səlahiyyətlərini təsdiq edən etibarnamə və ya digər sənəd;*
- *iddiaçının öz tələblərini əsaslandırdığı hallara dair sənədlər, əgər bu sənədlərin surətləri cavabdehlər və üçüncü şəxslərdə yoxdursa,onlara verilmək üçün bu sənədlərin surətləri;*

- *mübahisələndirildiyi halda, normativ aktın mətni;*
- *müqavilə ilə və ya həmin kateqoriya mübahisələr üçün qanunda bu nəzərdə tutulmuşsa, cavabdehlə mübahisənin məhkəməyə qədər və ya pretenziya qaydasında nizama salınmasına riayət edilməsini təsdiq edən sənəd.*

İddia ərizəsi, əgər məhkəmə onu daxil olmasından 2 həftə müddətində qaytarmayıbsa və ya onu qəbul etməkdən imtina etməyibsə, qəbuledilmiş sayılır. İşə məhkəmə tərəfindən 3 ay müddətində baxılır.

Ərizəçi birinci instansiya məhkəməsinin qətnaməsi ilə razılaşmadıqda apellyasiya instansiyası məhkəməsinin mülki kollegiyasına **apellyasiya şikayəti** verir. **Apellyasiya şikayəti məhkəmə qətnaməsi rəsmi qaydada verildiyi gündən 1 ay müddətində verilə bilər. Apellyasiya şikayətində aşağıdakı məlumatlar əks olunmalıdır:**

- *şikayətin verildiyi məhkəmənin adı və ünvanı;*
- *şikayəti verən şəxsin soyadı, adı, atasının adı, iş yeri, yaşayış yeri, yaxud olduğu yer və işdəprosessual vəziyyəti;*
- *barəsində şikayət verilən qətnamə, onun qəbul edilmə tarixi, nəticə hissəsi, qətnaməni qəbul edən məhkəmənin adı;*
- *şikayəti verən şəxsin tələbi və işin materiallarına istinad etməklə ərizəçinin qətnaməni düzgün hesab etmədiyi əsaslar;*
- *şikayətə əlavə edilən sənədlərin siyahısı.*

Apellyasiya şikayəti, şikayəti vermiş şəxs və onun qanuni nümayəndəsi tərəfindən imzalanmalıdır. Apellyasiya instansiyası məhkəməsində işə bir qayda olaraq, onun məhkəməyə daxil olduğu gündən 3 ay müddətində baxılmalı və müvafiq məhkəmə aktı qəbul edilməlidir.

Apellyasiya məhkəməsinin qərarından qərar rəsmi qaydada

təqdim edildikdən 2 ay müddətində Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına kassasiya şikayəti verilə bilər.

■

## III. SOSİAL HÜQUQLARIN AZƏRBAYCAN RESPUBLİKASI İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ (OMBUDSMAN) TƏRƏFİNDƏN MÜDAFİƏSİ

“Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Konstitusiya Qanunun 8-ci maddəsinə görə Müvəkkil Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin (bundan sonra "ərizəçi" adlandırılacaq) insan hüquqlarının pozulmasına dair şikayətlərinə baxır. Sosial hüquqlar da insan hüquqlarına daxil olduğundan digər insan hüquqları kimi bu hüquqların pozulmasından da şikayət verilə bilər.

Şikayət ərizəçinin hüquqlarının pozulduğu və ya ona bu barədə məlum olduğu gündən bir il müddətində verilə bilər.

Şikayətdə ərizəçinin adı, atasının adı, soyadı, ünvanı göstərilməli, eləcə də ərizəçinin hüquqlarını pozmuş qərar və ya hərəkətin (hərəkətsizliyin) mahiyyəti, şikayətin tərtib edilmə yeri, vaxtı və ərizəçinin imzası olmalıdır. Şikayətlə bağlı başqa materiallar və ya məhkəmə tərəfindən çıxarılmış qərar olduqda, şikayətə əlavə edilə bilər.

Şikayətdə ərizəçinin adı, atasının adı, soyadı, ünvanı göstərilmədikdə müraciət anonim hesab edilir və həmin şikayətlərə baxılmır. Lakin anonim şikayətdə göstərilən hallar kifayət qədər sübutlu və əsaslı faktlarla təsdiq edilirsə, həmin şikayətlər Müvəkkil tərəfindən baxılmaq üçün qəbul edilə bilər.

Şikayət şifahi verildikdə, Müvəkkil aparatının işçisi şikayətin məzmununu xüsusi blankda qeyd edir və ərizəçi həmin vərəqi imzalayır. Ərizəçinin xahişi ilə Müvəkkil onun barəsində məlumatları gizli saxlamalıdır.[6]

Qanunla şikayət vermə müddəti buraxıldıqda, şikayət Müvəkkilin səlahiyyətlərinə aid olmadıqda, şikayətdə göstərilən hallar kifayət qədər sübutlu və əsaslı faktlarla təsdiq edilməsi istisna olmaqla şikayət anonim olduqda, şikayətlə bağlı məhkəmə icraatı getdikdə, təkrar təqdim edilmiş şikayətdə yeni məlumatlar, faktlar və sübutlar olmadıqda şikayətə baxılmasından imtina edilir.[7]

**Şikayətə 30 gün müddətində baxılır. Şikayətə baxmaq üçün əlavə yoxlama aparmaq və ya material tələb etmək zərurəti yarandıqda müraciətə baxılma müddəti 30 gün də uzadıla bilər.** Ərizəçinin yazılı razılığı ilə əlavə yoxlama aparmaq lazım gəldiyi halda müraciətin baxılma müddəti yenidən uzadıla bilər.

Müvəkkil şikayətə baxılması ilə bağlı görülmüş tədbirlər və nəticələr barədə **5 gün** müddətində ərizəçiyə yazılı surətdə məlumat verir.

Müvəkkil şikayətin araşdırılması zamanı insan hüquqlarının pozulması hallarını aşkar etdikdə, aşağıdakı tədbirləri həyata keçirə bilər:[8]

- *qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş dövlət və yerli özünüidarə orqanlarından, vəzifəli şəxslərdən həmin hüquqların bərpasını tələb etmək (müvafiq orqanlar, vəzifəli şəxslər* ***10 gün*** *müddətində*

6. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Konstitusiya Qanunun 9.1. - 9.1.5.-ci maddələri
7. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Konstitusiya Qanunun 11.1., 11.1.1. - 11.1.5.-ci maddələri
8. “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Konstitusiya Qanunun 13-cü maddəsi 13.2., 13.2.1. - 13.2.8.-ci maddələri

*Müvəkkilə görülən tədbirlər barədə yazılı surətdə məlumat verməlidirlər. Məlumat verilmədiyi və ya Müvəkkilin tələbləri həyata keçirilmədiyi hallarda Müvəkkil həmin təşkilatın yuxarı orqanına və ya digər dövlət orqanlarına müraciət edə bilər);*

- *cinayət əlamətləri aşkar edildikdə, müvafiq orqanlara cinayət işinin başlanması barədə müraciət etmək;*
- *əlavə kassasiya qaydasında şikayət etmək hüququna malik subyektlərə müraciət etmək;*
- *qərar və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində insan hüquqlarını pozmuş vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi barədə müvafiq orqanlara təkliflər vermək;*
- *insan hüquqlarının pozulması ilə əlaqədar aparılmış yoxlamaların nəticələri ilə kütləvi informasiya vasitələrini tanış etmək;*
- *İnsan hüquqlarının pozulması xüsusi ictimai əhəmiyyət kəsb edən hallarda onların bərpası üçün Müvəkkilin səlahiyyətlərində olan təsir imkanları kifayət etmədikdə, Azərbaycan Respublikasının Prezidentinə müraciət etmək, Azərbaycan Respublikasının Milli Məclisi qarşısında məruzə ilə çıxmış etmək;*
- *dövlət və ya yerli özünüidarə orqanının, vəzifəli şəxsin qərarı və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində pozulmuş hüquqların bərpası üçün məhkəməyə müraciət etmək;*
- *şəxsin hüquqları qüvvədə olan normativ aktlarla pozulduqda, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək.*

Qeyd edək ki, hazırda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin Gəncə, Cəlilabad, Şəki və Quba şəhərlərində regioanl mərkəzləri fəaliyyət göstərir.

# ƏRİZƏ VƏ ŞİKAYƏTLƏRİN FORMA VƏ NÜMUNƏLƏRİ

***<u>Ərizə forması</u>***

______________________________________

*(Ərizənin verildiyi qurumun adı)*

______________________________________

*(Ərizəçinin soyadı, adı, atasının adı)*

______________________________________

*(Ərizəçinin ünvanı və əlaqə telefonu)*

**Ərizə**

__________________________________________________________

*(Ərizənin qısa məzmunu)*

__________________________________________________________

Yuxarıda göstərilənləri nəzərə alaraq xahiş edirəm:

__________________________________________________________

*(Xahişin qısa məzmunu)*

__________________________________________________________

*Ərizəçinin soyadı, adı,atasının adı və imzası:* ______________________

“___” _______20__ il.

Əlavə edilir: *(zəruri sənədlərin əsli və ya surəti əlavə edə bilər.)*

1. ___________

2. ___________

***Şikayət forması***

________________________________________

*(Şikayətin verildiyi qurumun adı)*

________________________________________

*(Şikayətçinin soyadı, adı, atasının adı)*

________________________________________

*(Şikayətçinin ünvanı və əlaqə telefonu)*

**Şikayət**

__________________________________________________

*(Şikayət edilən faktın, hüquq pozuntusunun qısa məzmunu)*

__________________________________________________

(*Pozuldiğu güman edilən qanunvericilik normalarına istinad edə bilər)*

Yuxarıda göstərilənləri əsas tutaraq xahiş edirəm:

__________________________________________________

*(Xahişin qısa məzmunu)*

__________________________________________________

*Şikayətçinin soyadı, adı, atasının adı və imzası:* _________________

“____” __________20____ il.

Əlavə edilir: *(zəruri sübutlar, sənədlərin əsli və ya surəti əlavə edə bilər.*

1.________________

2. ________________

***<u>İddia ərizəsi forması</u>***

__________ Apellyasiya Məhkəməsinin

İnzibati-İqtisadi Kollegiyasına

İddiaçı:_________________________

Ünvan:__________________________

Tel:_____

Cavabdeh: ________________________

Ünvan:___________________________

**İddia ərizəsi**

__________________________________________________________

*(iddianın məzmununun qısa təsviri)*

__________________________________________________________

Azərbaycan Respublikası İnzibati-Prosessual Məcəllənin 45, 46 və 130-cü maddələrinə müvafiq olaraq xahiş edirəm:

__________________________________________________________

*(xahişin məzmunu, tələbləriniz)*

__________________________________________________________

Ərizəçinin adı, soyadı imzası_________________

Tarix:_______

Əlavə edilir: *(təqdim edilən sübutlar, sənədlərin əsli və ya surəti, nümayəndə varsa onun etibarnaməsi, və s. əlavə edə bilər.)*

1. ____________________
2. ____________________

***Şikayət nümunəsi***

Azəbaycan Respublikası Əmək və
Əhalinin Sosial Müdafiəsi Nazirliyinə

Bağırov Amil Bərgüşad oğlu tərəfindən
Ünvan: Bakı şəhəri, Ş. Məmmədova küçəsi, ev 68, mənzil 147
Tel:____

**Şikayət**

Sizə müraciət edərək bildirirəm ki, mən xəstəliyimlə bağlı sğlamlığımı müəyyən qədər itirmişəm. Bu səbəbdən də mənə əlillik dərəcəsinin təyin edilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmidş qayda Tibbi Sosial Ekspert Komissiyasına (TSEK) müraciət etmişəm.

Lakin TSEK-in 11 avqust 2017-ci il tarixli cavab məktubu ilə mənə bildirilib ki, mənə əlillik dərəcəsi təyin edilməsindən imtina edilmişdir.

TSEK-in bu qərarı ilə razılaşmıram və hesab edirəm ki, mənim sağlamlıq durumum mənə müvafiq əlillik dərəcəsinin təyin edilməsinə əsas verir.

Yuxarıdakıları nəzərə alar xahiş edirəm:

Mənə əlillik dərəcəsinin təyin edilməsindən imtina ilə bağlı TSEK-in qərarınının araşdırılması ilə bağlı müvafiq tədbir görəsiniz.

İmza: Bağırov Amil Bərgüşad oğlu

15 avqust 2017-ci il.

Əlavə edilir:

1. *TSEK-in cavab məktubunun surəti*
2. *Təqdim edilən sənədlərin surətləri*

***İddia ərizəsinin nümunəsi***

Şəki İnzibati-İqtisadi Məhkəməsinə

İddiaçı: Xəlilova Günay Tofiq qızı Ünvan: Yevlax şəhəri,
Q. Xəlilov küçəsi 12, mənzil 4
Tel:___

Cavabdeh: Yevlax Rayon Polis İdarəsi
Ünvan: Yevlax şəhəri...

## İddia ərizəsi

Mən, Xəlilova Günay Tofiq qızı 2 aprel 2011-ci il tarixdə Xəlilov Elman Abbas oğlu ilə ailə qurmuşam və həmin tarixdən etibarən Xəlilov Elman Abbas oğlu ilə birgə Yevlax şəhəri, Q. Xəlilov küçəsi 12, mənzil 4 ünvanında yaşamışam.

8 aprel 2011-ci il tarixdə Yevlax Rayon Polis İdarəsinə, hal-hazırda yaşadığım Yevlax şəhəri, Q. Xəlilov küçəsi 12, mənzil 4 ünvanında qeydiyyata alınmağım barədə ərizə ilə müraciət etmişəm. Yevlax Rayon Polis İdarəsi10 may 2011-ci il tarixli məktubla mənim həmin mənzilə qeydiyyata almaqdan imtina etdiyini bildirmişdir. Məktubun surətini poçt vasitəsilə 13 may 2011-ci il tarixdə əldə etmişəm.

Hesab edirəm ki, Yevlax Rayon Polis İdarəsinin bu hərəkəti qanunsuzdur. İlk növbədə bildirim ki, 12 may 2011-ci il tarixli məktubda mənim hansı əsaslarla qeydiyyata alınmaqdan imtina edilməsi barədə heç bir qeyd yoxdur. Məktubda yalnız qeydiyyatdan imtina ilə bağlı məlumat verilmişdir. Digər tərəfdən mənim rayon polis idarəsinə təqdim etdiyim sənədlər qanunvericiliyin tələblərinə uyğun olmuşdur.

Belə ki, mən Yevlax Rayon Polis İdarəsinə“ Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikasının

Qanununun 5-ci maddəsinə əsasən, öz şəxsiyyət vəsiqəmi və evin mülkiyyətçisi olan Xəlilova Şəfiqə Arzuman qızının mənə yaşayış sahəsi verilməsi barədə ərizəni təqdim etmişəm.

Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 33.1-ci maddəsinə əsasən, məcburetmə haqqında iddia vasitəsi ilə iddiaçı onun arzuladığı inzibati aktı q əbul etmək vəzifəsini cavabdehin üzərinə qoymağı məhkəmədən tələb edə bilər. Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 8.1.4-cü maddəsinə əsasən, digər hallarda iddialara cavabdehin yerləşdiyi yerin, yaşayış yerinin, yaşayış yerinin olmadığı hallarda olduğu yerin və ya axırıncı yaşayış yaxud olduğu yerin məhkəməsi tərəfindən baxılır. Yuxarıda qeyd olunanları əsas tutaraq

Xahiş edirəm:

Yevlax Rayon Polis Şöbəsinin üzərinə mənim Yevlax şəhəri,Q. Xəlilov küçəsi 12, mən 4 ünvanına qeydiyyata alınmağım barədə qərar qəbul edilməsi vəzifəsinin qoyulması barədə qərar qəbul edəsiniz.

İmza: Xəlilova Günay Tofiq qızı

18 iyun 2017-ci il.

Qoşma.

1. İddia Ərizəsi: 2 nüsxə.
2. Yevlax Rayon Polis İdarəsinin 10 may 2011-ci il tarixli məktubunun surəti.
3. Yevlax Rayon Polis İdarəsinin təqdim etdiyim sənədlərin surətləri

Kitabça

“GGP Consult” Məhdud Məsuliyyətli Cəmiyyətinin

sifarişi ilə “S-Print” Çap Evində nəşr edilib.

Tiraj: 25 000

---

“Hüquq və İnkişaf” İctimai Birliyi ilə əlaqə:

Tel.: (+994 12) 511-62-28; (+994 50) 611 74 43

e-mail: himmerkez@yahoo.com
office@law.org.az
www.law.org.az